# TOVUZ

VƏTƏN, XEYİRXAHLIQ, ƏDALƏT UĞRUNDA

Tovuz Rayon İcra Hakimiyyətinin orqanı

Qəzet 1929-cu ildən çıxır * № 09-10 (7633-7634) * 3 oktyabr 2025-ci il * İctimai-siyasi qəzeti * Qiymәti: 60 qəpik


# 27 Sentyabr-Anım Günü qeyd olunub



Tovuz şəhər Şəhidlər Xiyabanında 27 Sentyabr-Anım Günü ilə əlaqədar tədbir təşkil edilmişdir. Tədbirdə Rayon İcra Hakimiyyətinin başçısı, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov şəhidlərimizin əziz xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan etmişdir. RİH başçısı qeyd etmişdir ki, bu gün müharibənin başlanmasından 5 il ötür. Amma şəhidlərimizin qəhrəmanlığı, xalqımızın birliyi və Zəfərimiz sanki dünən baş vermiş kimi yaddaşlarımızdadır. Şəhidlərimiz təkcə torpaq yox, həm də milli heysiyyətimizi, gələcəyimizi qorudular. Biz bu ağrını və qüruru eyni anda yaşayırıq. Onların qanı ilə yazılmış tarix heç vaxt unudulmayacaq. Vətən uğrunda canından keçən hər bir şəhidimizin xatirəsi bizim üçün əzizdir və daim yaşayacaq. Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər isə qürur mənbəyimizdir. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, bütövlükdə xalqımız əzm və iradə göstərmiş, bir yumruq kimi Müzəffər Ali Baş Komandanımızın ətrafında birləşərək böyük Zəfərə nail olmuşlar.




Tədbirdə çıxış edən Milli Məclisin Müdafiyə, Təhlükəsizlik və Korrupsiyaya Qarşı Mübarizə komitəsinin sədri Arzu Nağıyev qeyd etmişdir ki, 27 Sentyabr xalqımızın həm hüzn, həm də qürur günüdür. O, Vətən müharibəsində qazanılmış Qələbənin Azərbaycanın siyasi, iqtisadi və hərbi qüdrətinin göstəricisi olduğunu vurğulayaraq, şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğının ölkə rəhbərliyinin əsas prioritetlərindən biri olduğunu bildirmişdir.

Daha sonra Vətən müharibəsi şəhidi Əfşan Hüseynovun atası Əbülfəz Hüseynov, şəhid Emin Ələsgərovun həyat yoldaşı Səmayə Həsənova və Vətən müharibəsi iştirakçısı Eyvaz Süleymanov çıxış edərək, şəhid ailələrinə və qazilərə göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin minnətdarlıqlarını ifadə etmişlər.

Tədbirin sonunda şəhidlərin ruhuna dualar oxunmuş, Şəhidlər Xiyabanında ucaldılmış abidə kompleksi və əbədi məşəl önünə gül dəstələri düzülərək şəhidlərin əziz xatirəsi böyük ehtiramla yad edilmişdir.

Saat 12:00-da isə respublika üzrə olduğu kimi, Tovuz rayonu ərazisində də şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad olunmuşdur.

*"Tovuz"*



# Prokurorluq işçilərinin peşə bayramı qeyd olunub



***Ümummilli Lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamına əsasən, hər il 1 oktyabr ölkəmizdə Prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunur. Prokurorluq işçilərinin peşə bayramı rayonumuzda da qeyd olunub.***

Əvvəlcə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, rayon prokuroru Maarif Hüseynov, hüquq-mühafizə orqanlarının rəhbərləri və prokurorluq əməkdaşları Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsini ziyarət edib, önünə çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Sonra Tovuz rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov prokurorluq orqanlarında çalışan əməkdaşları peşə bayramı münasibətilə təbrik edib, onların ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, cinayətkarlığa qarşı mübarizə və vətəndaşların hüquq və azadlıqlarının təmin olunmasındakı əhəmiyyətli fəaliyyətini yüksək qiymətləndirib. O, prokurorluq əməkdaşlarına gələcək fəaliyyətlərində də uğurlar arzulayıb.

Sonda xatirə şəkili çəkilib.

*"Tovuz"*

# "PeşəFest-2025" festivalı keçirilib




***Tovuz şəhərinin mərkəzi meydanında gənclərin peşə təhsilinə marağının artırılması və peşəkar istiqamətləndirilmənin təşviqi məqsədilə "PeşəFest-2025" festivalı keçirilmişdir.***

Festivalda Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov, Milli Məclisin deputatı Nizami Səfərov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev, eləcə də ətraf rayonlardan olan dövlət və özəl təşkilatların rəhbər şəxsləri, gənclər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirin açılışında Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək rayonda peşə təhsilinin inkişafı istiqamətində görülən işlər, dövlətin bu sahəyə göstərdiyi diqqət və gənclərin əmək bazarına hazırlıqlı şəkildə daxil olmalarının vacibliyi barədə danışıb. Qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf yolu və cənab Prezident İlham Əliyevin gənclərə, onların gələcəyinə, həmçinin əmək bazarının tələblərinə uyğun peşələrin inkişafına göstərdiyi diqqət və qayğının nəticəsidir ki, ölkəmizdə bu cür mühüm tədbirlər həyata keçirilir. Keçirilən "Peşə-Fest-2025" əsas məqsədi – əmək bazarının mövcud vəziyyətini izləmək, çağırışlara uyğun peşə və ixtisaslar üzrə təklifləri formalaşdırmaq, vətəndaşlarımızı, xüsusilə yeniyetmə və gəncləri müasir əmək bazarının tələbləri barədə maarifləndirmək və yönləndirməkdir. Əminəm ki, tədbirdə iştirak edən gənclərimiz bu gün müxtəlif sahələr üzrə peşəkarlarla tanış olacaq, müasir peşələr və onların tələbləri barədə ətraflı bilgi əldə edəcək, interaktiv təqdimatlar və məsləhət xidmətləri sayəsində öz maraq və bacarıqlarına uyğun düzgün peşə seçimi etməyə bir addım daha yaxınlaşacaqlar.

Daha sonra Milli Məclisin deputatı Nizami Səfərov və Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Sadiq Əliyev çıxış edərək bildirmişlər ki, "PeşəFest 2025"in ölkənin 11 iqtisadi rayonunu əhatə edən interaktiv karyera yönümlü layihədir. Festival gənclərə və yeniyetmələrə müxtəlif peşələri tanıtmağa, onlara peşə seçimində dəstək olmağa xidmət edir. Həmçinin peşə təhsilinin iqtisadi inkişafda və məşğulluğun təmin olunmasında oynadığı roldan bəhs ediblər. Onlar gəncləri müasir tələblərə uyğun peşələrə yiyələnməyə, bacarıqlarını inkişaf etdirməyə çağırıblar.




Rəsmi hissədən sonra tədbir iştirakçıları festival çərçivəsində nümayiş olunan peşələrlə yaxından tanış olublar. Müxtəlif sahələr üzrə peşəkarlar öz ixtisaslarına uyğun təqdimatlarla çıxış edərək, təmsil etdikləri peşələrin mahiyyəti, iş imkanları və gələcək perspektivləri barədə ətraflı məlumat veriblər. Təqdimatçılar festival iştirakçılarına peşə seçimi ilə bağlı faydalı tövsiyələr verib, gəncləri əmək bazarında rəqabətədavamlı kadrlar olmağa səsləyiblər.

Festivalda təşkil edilmiş, 14 peşə (kibertəhlükəsizlik, data analitika, helpdesk, 3D animator, zinət əşyalarının dizayneri, turizm təşkilatçısı, dülgər, avtomobil təmiri üzrə çilingər, qida mühəndisi, qənnadıçı, xilasedici, barista, diş texniki və baytar) üzrə maarifləndirici stendlər, interaktiv zonalar, master-klaslar və maraqlı yarışmalar gənclərin böyük marağına səbəb olmuşdur.

Festival geniş konsert proqramı ilə başa çatıb.

*"Tovuz"*

# Biz hamımız İsa Cavadoğlunun “şinelindən” çıxmışıq



İsa Cavadoğlunun yoxluğuna adam inana bilmir. O, sıradan bir insan deyildi. Şair kimi şair, ziyalı kimi ziyalı, ağsaqqal kimi ağsaqqal idi. O qədər sadə, mülayim, yumşaq ürəyə malik idi ki, söz tapıb təsəvvür etmək də çətindir. O, şagirdləri üçün ideal müəllim, söz, sənət dünyasında isə böyük ustad idi. Mən 5-6-cı siniflərdə oxuyarkən onun şeirlərini qəzet və jurnallardan oxuyur, aşıqların dilindən eşidirdim.

Onunla ilk dəfə canlı olaraq “Həqiqət” qəzetinin nəzdində fəaliyyət göstərən H.Bozalqanlı adına ədəbi məclisdə tanış olduq. Onda 9-cu sinifdə oxuyurdum. Həmin məclisdə imzasını kifayət qədər tanıtmış şairlərlə yanaşı mənim kimi ədəbi mühitə yenicə qədəm qoymuş yeniyetmələr də vardı. Hər bir şeirin üzərində qızğın müzakirələr gedirdi. Məclisdə ilk dəfə iştirak etdiyim üçün özümü narahat hiss edirdim. Növbə mənə çatanda İsa müəllim özünəməxsus həlim, mülayim səslə dedi:

-Hə, alakollu balası, oxu görək nəyin var.

Mən ədəbi məclisə apardığım şeiri oxudum. Şeirimi tərifləyən də oldu, irad bildirən də. İsa müəllim müzakirələrə son qoydu:

-İlk təcrübə üçün pis deyil, Mənə belə gəlir ki, bu şeiri müəyyən kiçik düzəlişlərlə çap etmək olar.

Sonra İsa müəllim mənə çoxlu mütaliyə etməyi tövsiyə etdi.

O vaxtlar ayda bir dəfə qəzetdə şeir səhifəsi verilirdi. O bir ayı necə həyəcanla keçirdiyimi təsəvvür etmək belə çətindir. “Həqiqət” qəzetində ilk şeirimi görəndə həyəcandan gözlərim doldu, sanki bütün dünyanı mənə bağışlamışdılar. Yaşadığım kənddə, oxuduğum məktəbdə hamı mənə tamam fərqli yanaşırdı. Onda qərara gəldim ki, mən də İsa müəllim kimi ədəbiyyatçı olacağam.

O vaxtdan uzun illər keçib, saysız-hesabsız elmi-publisistik məqalələrim, kitablarım, şeirlərim çap olunub. Ancaq ilk şeirim çap olunduğu gün keçirdiyim hissləri bir də heç vaxt yaşaya bilməmişəm.

İsa müəllimin şeirləri barədə çox yazılıb, çox deyilib. Mən qısaca onu əlavə edə bilərəm ki, o, xəlqi bir şair idi. Hər misrasına sanki Vətən torpağının isti nəfəsi, ətri hopub. Onun “Azərbaycanam” şeiri Vətənimizin sözlə çəkilmiş bir xəritəsidir. İsa Cavadoğlu təkcə bir şair yox, həm də filosof idi. Hər bir şeirində, hər misrasında dərin mənalar, fəlsəfi düşüncələr gizlənib.

Mən İsa müəllimin şeirlərini bu gün də oxuyuram. Ustad aşıqların - Mikayıl Azaflının, Aşıq Əkbər Cəfərovun, İmran Həsənovun, Aşıq Əlxanın və başqalarının ifalarında uşaqlığımda, gəncliyimdə eşitdiyim şeirləri ömrümün bu ahıl çağlarında belə hələ qulaqlarımda səslənir.

Misralardakı gözəlliyə və hikmətə baxın:

*Söz açdım pələngin cəsarətindən,*
*Qorxulu vəhşəti yadımdan çıxdı.*
*Söz açdım suların hekayətindən,*
*Sellərin dəhşəti yadımdan çıxdı.*

Şeiri tam xatırlatmaq istəmirəm. Onsuz da, İsasevərlər onu əzbər bilir. Tək bir misra İsa Cavadoğlu hikmətini bariz şəkildə nümayiş etdirir.

*Söz açdım, ay İsa, söz sənətindən*
*Çətindir, hikməti yadımdan çıxdı…*

İsa Cavadoğlu mənim kimi onlarca, yüzlərcə qələm adamının yetişməsində, Tovuzdan pərvazlanmasında bir ustad kimi böyük rol oynayıb. Biz hamımız İsa Cavadoğlunun “şinelindən” çıxmışıq. Bu gün nəyə nail olmuşuqsa, hansı uğurları qazanmışıqsa, böyük ustadımız İsa Cavadoğluna borcluyuq.

O, bizim qəlbimizdə, xatirələrimizdə və uğurlarımızda əbədi yaşayacaqdır!



***Məhərrəm Qasımlı,***
***filologiya elmləri doktoru, professor,Əməkdar elm xadimi,Dövlət Mükafatı laureatı,Azərbaycan Aşıqlar Birliyinin sədri, Dövlət mükafatı laureatı.***

# Dərin düşüncəli insan ,istedadlı müəllim,təbiət vurğunu şair

***Memuar janrında yazılmış bir kitabda gözəl bir epiqraf oxumuşam: “Xatirələr faydalı olsun deyə,səmimi yazılmalı,gerçəkliyə tən gəlməlidir”.***

Hər bir insanın ömür tarixi bir dastandır,romandır.Bu romanın,dastanın məzmunluğu,gözəlliyi,zənginliyi onun qəhrəmanının keçdiyi həyat yolu,cəmiyyətə,xalqa,vətənə sədaqəti,etibarlılığı, sevgisi ilə müəyyənləşir.

İsa müəllimin də keçdiyi həyat yolu insanların,xüsusilə onu sevənlərin sevə-sevə oxuduğu,bəhrələndiyi,əldən-ələ gəzən romandır.Bu romanla tanış olanlar bilir ki,İsa müəllimə tərif gərək olmayıb.Onun nə əlavə izahata,nə də fəxri ada,nişana,təmtəraqlı ünvana ehtiyacı olmayıb.O, bir müəllim kimi,vətənini,xalqını,torpağını sevərək yaşayıb,yaradıb.Əgər soruşsalar ki,İsa müəllimi necə xarakterizə edərdiniz, mən deyərdim ki,o,çox istedadlı,təcrübəli,elini,xalqını,vətənini sevən,təbiət vurğunu,Böyük Azərbaycanın vurğunu, ən vacibi isə gözəl,səmimi ziyalı və tanınmış şair idi.

Orta məktəbdə mənim də müəllimim olub.Ədəbiyyatdan dərs deyirdi.Mən çox kasıb bir ailənin övladı idim.Həmişə məni dərsdən sonra saxlayıb,məsləhətlər verərdi və deyərdi:”Sən daha yaxşı oxumalısan,bu sənin və ailənin gələcəyi üçün vacibdir.Nə köməklik lazımdır mən edəcəm”.Bir dəfə zəngdən xeyli keçmiş 6-7 nəfər oğlan,mən də onlarla idim.Məktəbin direktoru Cahangir müəllim bizi otağına dəvət etdi.Gecikən şagirdləri cəzalandırırdı( çubuqla, biz 8-ci sinifdə oxuyurduq).Növbə mənə çatanda İsa müəllim dedi:-Cahangir müəllim, İbrahim yaxşı oxuyan,tərbiyəli şagirddir.Mənə böyük ibrət dərsi oldu.Çox şeylər dəyişdi.Mən o anı heç vaxt unutmamışam.Kəndə gələndə həmişə İsa müəllimlə görüşərdim.Məsləhətlərini dinləyərdim.Mənə təzə şeirlərini,kitabını verərdi.Kitablarının Bakıda keçirilən təqdimatlarında iştirak edərdim,ürək sözlərimi deyərdim.

Mən Bakı Dövlət Universitetinə daxil olanda ən çox sevinən müəllimlərimdən biri idi.Oxuduğum illərdə,Universitetdə bir müəllim kimi,bir alim kimi fəaliyyət illərimdə də İsa müəllimlə çox sıx əlaqə saxlayırdım.O,həmişə deyərdi,”Mən səninlə fəxr edirəm”.

Mən daim düşünürdüm ki,yaxşı ki,orta məktəbdə mənim İsa müəllim kimi,Cahangir müəllim kimi müəllimlərim olub.

Arxasıza,kimsəsizə arxaydı,dirək idi,İsa müəllim.İsa müəllimin müəllimliyi,qayğıkeşliyi,düzgünlüyü,böyük ürək sahibi olması hamıya nümunə idi.İsa müəllimin yaşadığı ömür tarixində qoyduğu iz onu tanıyanların,şəxsən mənim həyatıma çox təsir etmişdir.İsa müəllimi əhatə edən mühitin, onu sevənlərin rəğbəti az qala pərəstiş səviyyəsinə çatmışdı.İsa müəllimin keçdiyi həyat yolu,cəmiyyətdə tutduğu mövqe, onun şəxsiyyəti insanı saflaşdırırdı, mətinləşdirirdi, ədalətli,vicdanlı, qayğıkeş olmağa çağırırdı.

İsa müəllimin ziyalılığı,aristokratlığı,davranışı,sakit,təmkinli olması, səmimi xasiyyəti,nurani siması həmişə diqqəti cəlb edib,başqalarından seçilib.

O,şəxsiyyətindəki bütövlüyü və tamlığı ilə də fərqlənirdi.Məncə, bütün bunlar,qanunauyğun olaraq onun təbiyyətinin zənginliyindən,təbii insan kimi səmimiyyətindən irəli gəlirdi.

Sonda onu demək istəyirəm ki,elobamızın görkəmli insanları çoxdur.Amma, İsa müəllim insanlıq dünyasında mənim idealımdır.



***İbrahim Zeynalov,***
***BDU-nun tarix fakultəsini dekanı,tarix elmləri doktoru,professor.***

# YAŞA, YARAT İSA KİMİ



Sözümə İsa Cavadoğlunun bir şeiri ilə başlamaq istəyirəm:

***Əzizinəm xal qadına,***
***Yaraşıqdı xal adına.***
***İş görəndə elə gör ki,***
***Xal düşməsin xalq adına!***

Bu nümunədən də göründüyü kimi,İsa Cavadoğlu xalq ruhuna, folklor dünyasına bağlı şairdir. Dilimizin incəliklərini həm bir pedaqoq kimi, həm də bir şair kimi dərindən bilir və öz yaradıcılığında tətbiq edir.

N.Cəfərov demişdir ki, folkordan gəlməyən şair əslində böyük şair deyildir. İsa Cavadoğlunun böyüklüyü klassik ədəbiyyata, kökümüzə incə tellərlə bağlılığındadır. Əsərlərindəki dil gözəlliyi o dəqiqə diqqəti çəkir. Məs:

***Gah yazıram, gah pozuram,***
***Heç bilmirəm nə yazmışam.***
***Ömür gedir anlamıram,***
***Düz gedirəm, ya azmışam.***

İsa Cavadoğlu ömrünün çoxunu gənc nəslin tərbiyəsinə və yetkinləşməsinə həsr edib. Qocalıqda bircə arzusu olub.

***Dağlarda dumanı, çəni axtarın,***
***Tarlada sünbülü, dəni axtarın,***
***Daha qocalıram, ay əzizlərim,***
***Qocalıq çağında məni axtarın.***

Biz həmişə onun axtarışına özüylə və sözüylə birgə çıxmışıq. İsa Cavadoğlu həm yaxındadır, çox yaxında. İsa Cavadoğlu həm də uzaqdadır, sözünün sehirində, dərinliklərindədir. Onu həyatda və sənətdə saldığı izlərdə, dediyi sözlərdə axtarmağa dəyər. O sözünün, şeirinin yaşamasını istəyir. "Şeirim, sən yaşa, sevgimi yaşat"-deyir.

Başqaları ocaqları, pirləri, müqəddəs yerləri ziyarətə gedir, İsa Cavadoğlu şeiri, düşüncəni ziyarət etməyin tərəfindədir. Şair dostu Müzəffər Sarıoğluna yazdığı şeirdə olduğu kimi. O, şair dostuna yazır:

***Təbiət şeirdi, şeir düşüncə,***
***Göndər, İsa üçün ziyarət olsun!***

Ziyarətin qəbul olsun, şair! Belə ziyarətgahı səninlə baham biz də həmişə ziyarət etmək arzusundayıq.

İsa Cavadoğlu ömür keçdikcə Dədə Qorqud müdrikliyinə yiyələnib. "Söz söyləyim, boy boylayım!- deyə-deyə oba-oba, oymaq-oymaq gəzib", dolaşıb.

Latış şairi Yan Raynisin bir şeiri var:

***Həyat mənasız idi,***
***Sən ona məna verdin.***

İsa Cavadoğlu isə bir gözələ həsr etdiyi iki bəndlik şeirində böyük bir mənaya varır:

***Şair baxdı gözlərə,***
***Gözəl məhəl qoymadı.***
***Şair duydu gözəli,***
***Gözəl onu duymadı.***

***İllər ötdü-yaş artdı,***
***Gözəllik itdi, bitdi.***
***Şair bircə şeirlə***
***O gözəli yaşatdı.***

Bu, o gözəlin qanacağı, bu da böyük şair ürəyi!

Demək yaşamaq azdır, yaşatmaq lazımdır!

Sovet dövründə insanın meymundan yaranması haqqında fikirləri beynimizə mismar kimi çalmaqdan doymurdular. Bu elmi konsepsyaya qarşı çıxanlardan biri Tovuzda yaşayan şair İsa gözələ baxanda nəsə şübhəyə düşür ki, belə gözəl meymundan yarana bilərmi?! Özü də bilmədən Sovet həyat tərzinin alimi-biəməllərinə qarşı cəsarətlə meydan oxumuş və yazmışdı:

***Vallah, dilim gəlmir, ey gözəl pəri,***
***Deyəm ki, meymundan yaranmısan sən!***

İsa Cavadoğlu öz əsərlərində necə böyük narahatçılıqla, insanın dərdini çəkirsə, o dərəcədə də təbiətə qayğıyla yanaşılmasını istəyib hər vaxt:

***Zəyəm sahilində Koroğlu dağı,***
***Şavadın meşəsi hanı Kür üstə?!-***

deyəndə şairin insana, təbiətə məhəbbətinin Vətən torpağına olan məhəbbət qədər müqəddəs olduğunu görürük.

İsa Cavadoğlu yaradıcılığının bütün parametrlərində vətəndaş şairdir. Hansı mövzuda yazırsa yazsın ruhunda ucalıq var, torpaq, Vətən, yurd eşqi var, təəssüf hissiylə qarışıq haray var:

***Vətən parçalanıb, iş-işdən keçib,***
***Oyada bilmirik elləri hələ!***

Şair düz deyir, Mirzə Cəlilin, Mirzə Ələkbər Sabirin oyatmaq istədiyi xalq nədənsə hələ də bir çox məsələlərdə dərin uyğu içindədir. Xüsusən, Sabirin adını təsadüfi çəkmədik. İsa Cavadoğlunun satirik qələmi Sabir harayına qarışıb, bizi pisliklərdən, naqisliklərdən, yamanlıqlardan uzaq olmağa, oyanmağa çağırır. Hələ 1991-ci ildə "M.Ə.Sabirə xitab" şeirini bu əsəbi misralalarla tamamlayır:

***Kürsülərdə birlikdə deyib qışqırırıq,***
***Künc-bucaqda bölük-bölük, qırıq-qırıq***
***İş gələndə səbir vurur, asqırırıq,***
***Qalx, özün yaz bu bəndləri, Sabir, oyan!***
***İfşa eylə həpəndləri, Sabir, oyan!***

O, məclislərdə "Yanıq Kərəmi"dən çox "Cəngi" çalınmağını istəyir. "Layiqsən hər ad-sana, qələmim!"-deməklə "Azərbaycanam" demək haqqını qazanır. Mən bu şeiri oxuduqca təkcə bu şeirlə şairin Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilməsinin zəruriliyini vurğulamışdım. Ona verdiyim zəmanətdə bu fikri xüsusi olaraq qeyd etmişdim. Bu şeirdə Azərbaycanın həm fiziki coğrafiyası, həm də mənəvi dünyası var.

***Könlün nə istəsə var, istə, verim,***
***Yayın istisində qar istə, verim.***
***Bahar bayramında nar istə, verim,***
***Hər nazu-nemətli Azərbaycanam!***

***Nizami dühalı, Babək xəyallı,***
***Nəsimi Vüqarlı, Vaqif kamallı,***
***Koroğlu nərəli, Vurğun amallı,***
***Mehdi cəsarətli Azərbaycanam!***

İsa Cavadoğlunun məhəbbət mövzusunda yazdığı şeirləri də oxunaqlıdır, özünə məxsusdur. Hətta yeri gələndə incə yumorla doludur. "Rəqib" şeirini oxumaq kifayətdir ki, bu aşıq çox usta aşıqdir, elmlidir, amma elmlə yanaşı helmi də vardır deyəsən. Həmin şeirdə deyilir:

***Məhəbbət oduna yandım, yaxıldım,***
***Düşdü dildən-dilə eşqim, sirrim də.***
***Elə ki, meydanda qələbə çaldım,***
***Çəkildi yolumdan rəqiblərim də.***

***Təzə bir "rəqib" də gəldi meydana,***
***Axırda o mənə qələbə çaldı.***
***Totuq körpə balam mərdü- mərdana,***
***Mənim sevgilimi əlimdən aldı.***

Gözəl şeirdir, oxunaqlıdır, orijinaldır. Var olsun bütün sevgililəri "bir-birinin əlindən alan" körpələr!

İsa Cavadoğlu "At və sahibi" şeirində də orijinallığa nail olub. Sahibi atın üstündə Kürü keçir. Atın burnuna su dolsa da dəli-dolu dalğaları yarır ki, sahibini o biri sahilə keçirsin. Sahibi neyləyir bəs? Şallağı atın başına endirir.Bu çox ibrətamiz həyat hekayəsidir. "Yaxşılığa yamanlıq, kor eşşəyə samanlıq" deyən ataların çəkdikləri misalın ürəkgöynədici təsdiqidir.

Bu yerdə məşhur cərrah Topçubaşovun bu fikrini xatırladım:

"Yaxşılığın çoxu da adama ziyan gətirir". Artıq içilən su kimi.

İsa Cavadoğlu uzun müddət Tovuzda "Varislər" ədəbi məclisinin rəhbəri olub. Onlarla tanınmış şair pərvazlanıb onun rəhbərlik etdiyi bu məclisdən. Qocaman şair poemalarında, təmsil və satiralarında, müxtəlif şeir janrlarında digər yaradıcılara nümunə olmağa çalışıb. Özünün gözü necə toxdursa, sözünün gözü də eləcə toxdur. Özü necə olubsa, sözü də eləcə olub. O da başqaları kimi sənət və həyat yolunda daima axtarışda olub. Axtarıb, tapıb...itirib...yaxud... axtarıb...tapıb.

***Gözəl bir insan ömrü yaşayıb,***
***Gözəl bir pedaqoq ömrü yaşayıb,***
***Gözəl bir şair ömrü yaşayıb.***

***Bir ömür payın var, yoxdur ikinci,***
***Hamıya belədir, nə küs, nə inci.***
***Gün keçir yubanma axtar, gəz, inci***
***Yarat insan kimi, qur insan kimi!***

P.S. **Son misraya kiçik bir düzəliş etmək istədim: Həmkarlarıma və özümə "Yaşa,yarat İsa kimi, qur İsa kimi"!-dedim.**



***BARAT VÜSAL,***
***AYB Qazax Bölməsinin sədri.***

# Tovuzun söz ağsaqqalı: İsa müəllim

Tovuz ədəbi və söz mühitindən söz düşəndə istər-istəməz yada aşıq Hüseyn Bözalqanlıdan üzü bəri kimlər yada düşmür?! Bu sırada Azərbaycan aşıq məktəbinin çox qüdrətli nümayəndələri Azaflı Mikayıl, İmran, Əkbər, Mahmud, Çopur Ələsgər, Alakollu İdris və başqaları kimi, ədəbi mühitin Məstan Günər, Məmməd İsmayıl, Məmməd Namaz,Telman Tovüzlu, Müzəffər Sarıoğlu kimi və adlarını çəkə bilmədiyim onlarca sənətkarlar gəlir. Ruhları şad olsun, onlar təkcə böyük bir xəzinəyə bənzəmədilər, həm də çox zəngin bir milli sərvət kimi Azərbaycan xalqının taleyinə yazıldılar.

Bu sırada ola bilsin ki, sağlığında çox az yada düşən bir sənətkar da olub: İsa İsayev (Cavadoğlu). Əslində bu gün Azərbaycanın ədəbi mühitində kifayət qədər tanınan bir çox yaradıcı insanın, onların adlarını qəsdən çəkmirəm, çünki dəyərli oxucu kimlərdən söhbət getdiyini mütləq biləcək, formalaşmasında İsa müəllimin əvəzsiz xidmətləri olub. Vaxtı ilə "Həqiqət" qəzetinin nəzdində qəzetin redaktoru Musa Musayevin yaradığı "Qönçələr" ədəbi birliyinə İsa müəllim rəhbərlik edirdi.

İsa İsayev haqqında danışarkən onun həyat yolunu, yaradıcılıq dünyasını və şəxsiyyətini bir cümlə ilə ifadə etmək mümkünsüzdür. O, sadəcə bir şair yox, həm də el ağsaqqalı, xalqın söz adamı, yaddaşını və ruhunu qoruyan bir ziyalı idi.

Əyalətdə - doğulduğu torpaqda yaşasa da, İsa İsayevin sözü, poeziyası və düşüncələri heç vaxt məkanla məhdudlaşmayıb. O, Bakı ədəbi mühitindən uzaqda olsa belə, yazdıqları ilə Azərbaycan ədəbiyyatının dəyərli bir parçası ola bildi. Bəlkə də paytaxta köçsəydi, daha geniş tanınar, daha çox mətbu orqanlarda çıxış edərdi. Amma onun böyüklüyü məhz buradadır - öz kəndinə, elinə, obasına sadiqliyində. Bu sadiqlik ona həm xalq sevgisi qazandırdı, həm də yaradıcılığını doğma torpağın ruhu ilə yoğrulmuş şəkildə qorudu.

İsa müəllimin yaradıcılığına nəzər salanda onun poeziyasının əsas mövzularını aydın görmək mümkündür:

• Vətən sevgisi və milli qürur - O, şeirlərində Azərbaycan torpağının gözəlliklərini, xalqının mərdliyini, qəhrəmanlıq tarixini tərənnüm edirdi.

• Tarixi yaddaş və milli kimlik - Şairin Babək, Nəsimi kimi tarixi simalara müraciəti təsadüfi deyildi. O, bu qəhrəmanların iradəsini, azadlıq uğrunda mübarizəsini öz poeziyasında yaşadırdı.

• El-oba məhəbbəti - Tovuzun Əyyublu kəndi onun üçün sadəcə doğulduğu məkan deyil, həm də ilham mənbəyi idi. Onun şeirlərində kənd həyatı, sadə insanların taleyi, əxlaq və həyat fəlsəfəsi geniş yer alır.

Bu ümumiləşdirmələrdən sonra İsa İsayevin adı çəkiləndə "böyük şair" ifadəsi işlətməmək olmur. Bu söz sadəcə ədəbi epitet deyil, onun şəxsiyyətinə verilən ən doğru qiymətdir. Çünki "böyüklük" təkcə yazdığı əsərlərin miqyası ilə deyil, həm də insan kimi daşıdığı dəyərlərlə ölçülür. İsa müəllim sadəliyi, təvazökarlığı, sözə və xalqa sədaqəti ilə böyük idi.

"Vüqarım Nəsimi, Babək vüqarı,Əyilməz başımdan əsirlik keçməz" kimi misraları ilə şair öz qürurunu xalqın tarixi qəhrəmanları ilə eyniləşdirir. Nəsimi və Babək obrazları təkcə fərdi talelər deyil, həm də bütöv bir millətin azadlıq və mübarizə simvoludur. Şair özünü həmin qəhrəmanların davamçısı kimi təqdim edir. Bu, onun poeziyasında milli ruhun necə güclü olduğunu göstərir.

İsa İsayevin irsi Azərbaycan ədəbiyyatında regional poeziyanın xüsusi bir qolu kimi qiymətləndirilə bilər. O, paytaxtdan uzaqda yaşamasına baxmayaraq, milli poeziyanın böyük bir parçasına çevrildi. Onun əsərləri göstərdi ki, ədəbi sözün gücü məkandan asılı deyil - istər Əyyublu kəndində, istərsə də Bakının mərkəzində olsun, həqiqi poeziya öz oxucusunu tapır.

Onun poeziyası həm də xalqın ruhunu daşıyan sənət nümunəsi kimi əhəmiyyətlidir. Çünki İsa İsayev sözündə xalqın ağrılarını, qürurunu, milli kimliyini qoruyub gələcək nəsillərə ötürürdü. Bu mənada onun yaradıcılığı təkcə ədəbi fakt deyil, həm də tarixi-mənəvi yaddaşın bir hissəsidir. Onun əsərləri həm yazılı şəkildə, həm də şifahi ədəbi mühitdə geniş yayılmış, bölgədə vətənpərvərlik ruhunun güclənməsinə xidmət etmişdir.

O, poeziyasında xalq ruhunu, xalqın qürurunu ifadə etməyi bacarırdı. Vüqarı Nəsimi, cəsarəti Babək olan bir xalqın şairi idi və buna görə də onun adı önünə "böyük" sözünü əlavə etmək təsadüfi deyil. İsa İsayev Azərbaycan poeziyasının regional, amma eyni zamanda milli miqyasda dəyər qazandıran şairlərindən biridir. Onun yaradıcılığı yalnız Tovuz bölgəsinin deyil, bütövlükdə xalqın düşüncə və duyğularının ifadəsi kimi qiymətləndirilir.

İsa İsayevin yaradıcılığı, söz mirası bu gün də Tovuzdan Bakıya, Azərbaycanın hər yerinə yayılan bir işıqdır. Onun şeirləri gənclərə milli ruh aşılayır, yaşlı nəsillərə öz köklərini xatırladır. İsa müəllim şer və poemaları, eləcə də az-az da olsa yazdığı publisist yazıları ilə təkcə şair yox, həm də xalq yaddaşının qoruyucusu idi.

İsa İsayevin ədəbi irsi Azərbaycan poeziyasında xalqla ədəbiyyat arasında canlı bir körpü rolunu oynayır. O, öz sadə, emosional və mənəvi zənginliyi ilə poeziyanı elin ruhuna yaxınlaşdırdı. Onun şeirləri həm milli kimliyin qorunmasına, həm də gələcək nəsillərə milli qürur hissinin ötürülməsinə xidmət edir. Buna görə də İsa İsayevin adı poeziya tariximizdə xalq ruhunu daşıyan böyük sənətkar kimi qalacaq.



***Namiq Əhmədov,***
***Azərbaycan Respublikasının Əməkdar Jurnalisti, "Qızıl Qələm" , "Araz", Həsən bəy Zərdabi və TURKSOY-un Ali Mediya mükafatcısı, filologiya üzrə fəlsəfə doktoru.***

# Ustadım İsa müəllim

İsa müəllim Sayalı xalamın ömür-gün yoldaşı idi. Amma ağlım kəsəndə bu böyük insanı atam mənə bir qohum kimi deyil, bir böyük şair kimi təqdim etdi. Beləliklə,onun "Ədəbiyyat" və "Həqiqət" qəzetlərində çap olunan şeirlərini 5-6-cı siniflərdən izləyib əzbərləməyə başladım. Bir də 7-ci sinifdə özümdə hiss etdim ki, deyəsən, mən də şeirə oxşar nəsə yazmaq istəyirəm. Yalnız 8-ci sinifdə atam məndən xəbərsiz şeir dəftərimi ona vermişdi. Bundan sonra şeirlərimi İsa müəllim dəftərdən oxuduğuna görə ondan xeyli çəkinməyə başladım, Sayalı xalamgilə uzun müddət getmədim. Həm İsa müəllim mənə nə deyəcəyini bilmirdim,həm də mənim şeir yazdığımı İsa müəllim bildiyinə görə utanırdım. 1980-ci il idi, biz kənddə Tabat nənəgillə qapı qonşusu idik. (Tabat nənə "qızıl əsgər" ailəsi idi, Tovuz rayon partiya komitəsinin ikinci katibi işləyən Nəriman Tağıyevin anası idi). O vaxtlar o küçədə telefon təkcə Tabat nənəgildə idi. Tabat nənə günlərin birində məni telefona çağırdı. Zəng edən İsa müəllim idi. Dilim tutulmuşdu. Dedi ki,gəlim dəftərimi ondan götürüm. Həftənin sonu "Həqiqət" qəzetində çap olunan şeirlərin içərisində öz şeirimi görəndə sevincdənmi, heyrətdənmi,həlе də anlaya bilmirəm, donub qaldım. Müəllimələrimə yazdığım "Borcluyam sənə" şeirimi İsa müəllim çapa vermişdi.

*Doğma balan bilib neçə şagirdi,*
*Ana qayğıları göstərdin bizə.*
*Bir ümman ömrünü damla-damla sən,*
*Sevinclə, həvəslə pay verdin bizə.*

*Mən də ömrüm boyu borcluyam sənə,*
*Bu borc pul deyil ki, verib qurtaram.*
*Bəlkə o ümmanın bu şeirim ilə,*
*Bircə damlasını sənə qaytaram.*

Bundan sonra İsa müəllim məni Tovuz şəhərinə,özünün rəhbərlik etdiyi Hüseyn Bozalqanlı adlna ədəbi-bədii dərnəyə apardı və mütəmadi olaraq şeirlərim orta məktəb illərimdə "Həqiqət qəzetində dərc edilirdi.

Rasim İsayev (xalam oğlu) xəbər verdi İsa müəllimin rəhmətə getdiyini. O davam edirdi, telefonda, danışırdı, mənim isə ürəyimdə eləbil kim isə bu şeiri oxuyurdu:

***Bir gün gələn bir gün gedər;***
***Haqdan gələn əmrimiz var.***
***Dünya boyda Allahımız,***
***Allah boyda Tanrımız var.***

***Bahar getdi-əl eylədik,***
***Payız-qışa gəl eylədik.***
***Ömrü-günü kül eylədik-***
***Bir kül boyda kömrümüz var.***

***O İlhamlı bağlardayam,***
***O məktəbli çağlardayam.***
***Beş-üç gündür dağlardayam,***
***Beş-üç günlük ömrümüz var...***

İsa müəllim haqqında xatirələrim çoxdur. 1999-cu ilin sentyabr ayı idi. İşgüzar bir səfərə ezam olunmağımla əlaqədar olaraq, əvvəl Bakıdan Suriyanın Hələb şəhərinə təyyarə ilə, Hələbdən isə avtobusla Şam şəhərinə (Dəməşq) və oradan da İordaniyanın paytaxtı Amman şəhərinə gedəsi oldum. Ammanda işlərim iki həftə uzandı. İkinci həftənin sonuncu günü çox darıxırdım.

Darıxarkən İsa Cavadoğlunun bir qoşması başımda dolanıb dururdu. Bu qoşmanın ikinci bəndini bütövlükdə, üçüncü bəndinin isə iki misrasını heç cür yadıma sala bilmirdim. Amma, bu şeiri də başımdan çıxara bilmirdim. Sanki onu astaca söylədikcə mənə bir rahatlıq gəlirdi. Bu şeiri yarımçıq biləmyim də məni o biri tərəfdən rahat qoymurdu. İsa müəllimimn qol-qanadını sındırdığım qoşması məni qane etmədiyi üçün özümdən ona əlavələr etməyə başladım və yavaş-yavaş onun şeirinə bir cavab yarandı:

**Keçib**
***Cavadoğlu İsa***

Gəzdim səadəti bir ovçu kimi,
Dedilər, bu çöldən, çəməndən keçib.
Çəməndən soruşdum, çöldən soruşdum,
Səs gəldi, əzizim, dünəndən keçib.

Qəlbimi odlara yandırıb yaxdım,
Əlçatmaz, ünyetməz dağlara qalxdım.
Sonsuz üfüqlərə baxdım, ha baxdım,
Gördüm çox uzaqdan, çox gendən keçib.

İsanın xəyalı dumanlıq imiş,
Gör nələr qəlbinə qaranlıq imiş...
Sən demə, gəzdiyim cavanlıq imiş,
Mən onu gəzmişəm, o məndən keçib.

**Keçib**
***İlhamlı Mikayıl***

Sən söz ustasısan, mən kapitanam,
Dənizdə tufanlar gəmimdən keçib.
Vaxtı söyləyən var, hökmü verən var,
Fərmanı göndərən de, kimdən keçib?

Dərsindən "beş" aldım- "həyat beş"ləri-
Həyatda çox keçdim keşməkeşləri...
Gördüm nağılları, sərgüzəştləri,
Ammanı dolanıb, Yəməndən keçib!

O gözəl Tovuza burdan salamlar,
Var olsun İlhamlı, salam alanlar!
Belə incə düzmək şeirə kəlamlar,
Deyəsən, o İsa əmindən keçib!
*Amman, İordaniya, 1998-ci il*

1999-cu ilin sentaybr ayı idi. Amerika Birləşmiş Ştatlarının Vaşinqton Ştatının Siətl şəhərində ezamiyyətdə idim. Bu ezamiyyət nə az, nə çox 6 ay çəkəcıkdi.Amerikaya yeni ayaq basan hər bir əcnəbi, sanki,Xristofor Kolumbu xatırladır. İnsan elə bil ki, yeni bir dünyaya və ya yeni bir planetə gəlib düşmüşdür. Xüsusilə də, on iki saatlaq birbaşa uçuşdan sonra...

Ezamiyyətin sonuncu ayı çox darıxırdım. Kəndimizə aşağıdakı şeiri yazdım və bu şeiri İsa müəllim cavabsız qoymadı:

***Mikayıl İlhamlı***
**Uğruma nur çilə...**

Uğruma nur çilə, aySeyid Kamal*,
Qeybanə o cəddin bizim ellidir.
Mələklər endiyi Əyyublu kəndi,
Behişdir, cənnətdir, allı-güllüdür.

Gilası budaqda saçaq-saçaqdır,
Almasıöpülmüş bir cüt yanaqdır.
Şıdırğı yağışı üzlü qonaqdır,
Kəkliyi, turacı yaman dillidir!..

Köksündə püskürən aşıb-daşmalar,
İlham pərisilə qucaqlaşmalar...
İsa Cavadoğlu düzən qoşmalar,
Nanəli, reyhanlı, qərənfillidir.

Getsəm, yola salıb göndərənim var,
Qalsam, baş tərəfdə yer verənim var.
Mən yansam, a dağlar, söndürənim var-
Hər vaxt Çıraqlıçay sulu-sellidir.

Buraya İlhamlı Tovuzdan gəlmiş,
Hər yanım okean- sərhəd düzülmüş,
Məktubu yad eldən sızmış, süzülmüş,
Hər sətri sədəfdir -içi ləllidir!
*Siətl, Vaşinqton, 2000-ci il*

**Ey dost**

Ey Seyid Kamala xitab edən dost,
Onun gözəl cəddi elə bəllidir.
Şöhrətli mahaldı Əyyublu kəndi,
Adı bir balaca qərəvəllidir.

Hər cürə meyvəsi tabaq-tabaqdır,
Bir yanı arandır, bir yanı dağdır,
Yaxşı işlərilə üzləri ağdır,
Şirin nəğmələri bəmli-zillidir.

Qonaqlar, səyyahlar burda dincəlir,
Burda süfrə salmış Cənabi Əli.
İgid oğulları pələng pəncəli,
Zərif gözəlləri incə bellidir.

Gələn dəstə-dəstə el gözlər səni,
Getsən, yola salıb əzizlər səni.
Şəhər bürküsündən təmizlər səni,
Çuğullu çayı da səba yellidir.

İsa Cavadoğlu yazdı cavabı,
Üç bənddir, beş bənddir qoşma rübabı.
Seyidin duası, elin savabı
İnama uğradan xoş təsəllidir.

Həmişə ürəyimizdəsən,bizimləsən, İsa müəllim!



**Mikayıl İlhamlı**

# HAQQ ADAMIYDI, HAQQA QOVUŞDU

Mən İsa Cavadı 20 ildən artıqdır ki, tanıyırdım. Həm də çox yaxından tanıyırdım. Bu tanışlığın kökündə oğlu Rasimlə yaxın münasibətim dayanırdı. İlk dəfə Rasimin sayəsində tanış olsam da, sonradan aramızda çox doğma bir münasibət yaranmışdı. Tez-tez zəngləşirdik. Bakıya yolu düşəndə isə mütləq görüşür, hər kəlməsindən dürr tökülən, hər misrası qəlb oxşayan, sözün əsl mənasında müdriklik mücəs-sə-mə-si və Haqq yolunun yolçusu olan bu ağsaqqalın söhbətindən doymurdum. Tovuzda da qonağı olmuşdum. Aramızdakı bu doğmalıq görünür,həm də ondan irəli gəlirdi ki, hər ikimiz saza-sözə bağlı idik.

İsa Cavad şair idi. Sözün əsl mənasında şair.Hər zaman sözü uca tutan, qiymətini bilən, onu urvatdan salmayan, dediyi sözün məsuliyyətini bilən bir şair!

Bir neçə kitabını nəşrə hazırlamağım isə, onu bir söz adamı kimi daha yaxından tanımağıma imkan yaratdı.Yaradıcılıq keyfiyyətləri ilə şəxsi keyfiyyətlərinin üst-üstədüş-düyünü gördüm. Şeiri Haqq yolunun nur mənbəyi sayan İsa müəllimin bir şəxsiyyət kimi bütövlüyü yaradıcılığında özünü daha bariz şəkildə göstərib həmişə. Onun hər misrasından Vətən torpağının ətri duyulur,hər şeirində oxucularını halallığa, düzlüyə, dostluqda sədaqətə çağırırdı. Gənclərə tövsiyəsi də bu idi ki, haramdan uzaq olsunlar, hər işdə halallığa söykənsinlər.

İsa Cavad el adamı, elin xeyrinəşərinə yarayan ağsaqqal idi. Bu səbəbdən də el-obada böyük hörmət-izzət qazanmışdı. Bütün ömrü boyu bir həqiqətə inanaraq yaşayıb:

El kimi tanıyır, kimi sayırsa,
Xeyrinə, şərinə o yarayırsa,
Bax, onda sayılır insan, ay İsa!

Təəssüf ki, artıq İsa Cavad haqqında keçmiş zamanda danışır, təsəllini ondan yadigar qalan şirin və heç zaman unudulmayacaq xatirələrdə tapırıq. Və bir də təsəllimiz odur ki, İsa Cavad cismən aramızda olmasa da, xeyirxah əməlləri, yazdığı bir-birindən gözəl əsərləri onu daim yaşadacaq. Xalq şairi Zəlimxan Yaqub necə də gözəl deyib:

Baxmağa güzgüsü, aynası yoxdu,
Yüz il yaşasa da, mənası yoxdu,
Diri ölüllərin dünyası yoxdu,
Bu dünya əbədi dirilərindi.

Bəli, bu dünya əbədi dirilərindir. İsa Cavad da fani dünyadan köç edib, əbədi dirilərin cərgəsində haqq etdiyi yerini tutdu. Haqq adamıydı, Haqqa qovuşdu. Ruhu şad olsun!



***Musa Nəbioğlu,***
***Azərbaycan Aşıqlar Birliyinin katibi, Əməkdar mədəniyyət işçisi.***

# SÖZÜN PEŞƏKARI

Bir əsrə yaxın ömür sürdü İsa Cavadoğlu. Doğulduğu Tovuz rayonunda yaşayıb-yaratdı, doğma obasında da torpağa tapşırıldı. Poeziyası bölgə sərhədlərini aşacaq qüdrətə malik olsa da, yaşadığı faktiki məkan öz sözünü demişdi, həm də bir zamanlar internet əlçatanlığı, sosial şəbəkə yardımı yox idi...

Bununla belə, Azərbaycan Yazıçılar Birliyinə Tovuzdan ilk üzv olanlardan idi. Yaradıcılığı ilə buna çoxdan haqqı çatırdı, lakin sovet dövrünün də öz fəsadları vardı...

Hələ 80 illik yubileyi vaxtı yaradıcılığı haqqında bir neçə məqalə yazıb dərc etdirmişdim. Hər məqalə də bir mövzuda idi. İstənilən tədqiqatçı istənilən mövzuda onun poeziyasından bəhs edə bilər. Çünki mövzu və janr rəngarəngliyi tədqiqatçının işini asanlaşdırır. Həmin yazılardan biri şairin yaradıcılığında təbiət mövzusuna həsr olunmuşdu. Bu mövzuya yenidən diqqət ayıranda yenə də heyrətamiz gözəlliklə qarşılaşıram. "Ceyran gözəlliyi dırnaqlarıyla,Dərəyə yazıbdır, düzə yazıbdır" misralarında gözəllik oxucunu toruna salır. Ceyranın özünəməxsus yerişi, atdığı hər addım təbiətə naxış vurur. Şair bir heyvanın yerişindən poeziyanın payını götürür.



Əvvəlki yazılarımda İsa Cavadoğlunun həm sovet, həm də müstəqillik illərində yazdığı əsərlərə münasibət bildirmişəm. Son illər isə Zəfər sorağı onun da qələminə tuş gəldi.Zəfərin memarı Ali Baş Komandanımızı şeir dili ilə vəsf etmişdi. "Şərəfli adını Ulu Öndərin,Daha da ucaltdı İlham Əliyev!" - sətirləri ilə başlayan şeirdə Zəfər tariximizin ən önəmli detalları incəliklə şeirə gətirilib. "Bütün yer üzündə Azərbaycanı,Əbədi tanıtdı İlham Əliyev!" - fikirləri gerçəkliyin sevincdən doğan daha bir etirafıdır. Bir sərkərdənin idarəçilik məharəti ilə bir ordunun qələbədən qələbəyə üz tutmasının əsl mahiyyəti bu şeirin ruhuna hopmuşdur. İsa Cavadoğlu uşaqlığında İkinci Dünya Müharibəsinin 4 illik fəlakətini görmüşdü. Qocalığında isə Vətən Müharibəsinin 44 günlük rəşadətini gördü. Həyatın hər üzünü, iki əsrin nəhəng çalxalanmalarını gördü. Zamanın qüdrətini, fövqəl gücünü yaxşı bilirdi:

***Zaman öz atını çapdığı yerdə,***
***Tozundan hər yana çəkilir pərdə.***
***Kim hardan bilər ki, filan əsrdə,***
***İsa da varıymış gidi dünyada!***

Zaman atını çapıb gedir, atının dırnaqlarından qopan tozanaq bəzən hər şeyi vaxtında görməyimizə mane olur. Bəzən ən layiqliləri də vaxtında qiymətləndirməyə tələsmirik. Lakin bilənlər bildi ki, İsa Cavadoğlu sovet dövründə də, müstəqillik illərində də sözünün peşəkarı oldu. "Çələng hördüm çiçəklərdən,Söz topladım ürəklərdən," - deyərək ədəbiyyatımızın zənginləşməsinə öz töhfəsini verdi.



***Gülnar Səma,***
***filologiya üzrə fəlsəfə doktoru.***

# Ağır itgi



Şair, müəllim, ağsaqqal, əsl türk oğlu, əsl türk kişisi İsayev İsa Cavad oğlu haqqında fikir söyləmək mənim üçün həm ağırdır, həm də şərəfdir. Onun dünyasını dəyişməsi bizim üçün, el-obamız üçün çox ağır itgidir. 95 yaşında dünyasını dəyişməsinə baxmayaraq səliqəsi, qeyri-adi yaddaşı, danışığı, nitqi, etikası, mədəniyyəti bu yaşında da yüksək səviyyədə olan İsa müəllimə bizim həmişə mənəvi ehtiyacımız var idi.

Şairlik fəaliyyəti ilə bağlı nə isə deməyə gücüm çatmır. Yalnız onu deyə bilərəm ki, onun yaradıcılığı ilə demək olar ki, tam tanışam. Belə ki, bütün kitablarını dönə-dönə oxumuşam. Hətta bəzi əsərlərinin ilk oxucularından olmuşam. Yeni çap olunmamışdan qabaq oxumuşam. İsa müəllimin qeyri-adi yazıları, elmi və fəlsəfi əsərləri zaman gələcəkdir ki, tədqiqatçılar tərəfindən araşdırılacaq, bu barədə elmi əsərlər yazılacaqdır. Uzun müddət bizimlə birlikdə yaşayan, gündəlik təmasda olduğumuz bu insan əslində adi bir şəxs deyil, çox ciddi öyrənilməli yaradıcılığı olan qeyri-adi bir şəxsiyyət idi. Onun əsərlərini hər dəfə təkrar oxuduqca bunu daha çox hiss edir və anlayırsan. İsa Cavad oğlu İsayevə "Xalq şairi" adı verilməsə də, O, xalqın əsl şairi idi.

Mənim orta məktəbdə təhsil aldığım illərdə İsa müəllim bizim məktəbin müəllimi və rəhbərlərindən olmuş, hətta bizə dərs demişdir. Sonralar mən müəllimlik fəaliyyətinə başladığım ilk illərdən, dəqiq desəm 1980/1981-ci tədris ilində onun direktor olduğu Aşağ Ayıblı 2 nömrəli kənd orta məktəbində işləmişəm. Sonra mən 1981-ci ildən Aşağı Ayıblı 1 nömrəli orta məktəbdə ibtidai siniflər üzrə direktor müavini işlədim. İsa müəllim isə həmin məktəbdə təşkilatçı müavin, yeni sinifdənxaric-məktəbdənkənar işlər üzrə direktor müavini işlədi və biz onunla direktor müavinləri kimi yoldaşlıq etdik. Daha sonra 1994-cü ildən həmin məktəbdə direktor vəzifəsinə seçildim. Beləliklə mən və İsa müəllim direktor-müəllim kimi də pedoqoji münasibətdə olmuşduq.

Mən oxuduğum və işlədiyim dövrlərdə həmişə İsa müəllimə qibtə etmişəm. Onun müəllimlik qabiliyyətinə həsəd aparmışam. Mən bütün iş fəaliyyətim boyu ondan öyrənməyə çalışmışam. İsa müəllim əvəz olunmaz bir müəllim idi. Yenə də mən və mənim kimi müəllimlər ondan çox şey öyrənirdilər: insanlarla davranmağı, ünsiyyət qurmağı, ictimaiyyətlə əlaqə yaratmağı, elin, xalqın qayğısını çəkməyi, daim mütaliə etməyi, elmi savadını artırmağı və s.

*Hər sinfə girəndə qoşa ulduz tək,*
*Neçə göz zillənir üzümə mənim.*
*Baxışlar məsumdur, şüurlar kövrək,*
*İnamlar bağlıdır sözümə mənim.*

*Tək bircə nöqtəni dolaşıq desəm,*
*Gör neçə ürəyə ləkəsi qonar?*
*Tək bircə anımı hədər keçirsəm,*
*Gör neçə ömürdə boşluq yaranar?*

*Hər gün kəlmə-kəlmə qurduğum özül,*
*Dağılar zamanın sınaqlarında.*
*Neçə cavan ömür, neçə gənc könül,*
*Məhv olar həyatın ayaqlarında!*

*Bəli, müəlliməm,şərəfdir işim,*
*Günəş şüasıyam, sərin mehəm mən.*
*İnsanlar üçündür könül atəşim,*
*İnsan taleyinə cavabdehəm mən.*

İsa müəllimin dərs dediyi şagirdlərdən onu sevməyən ola bilməz. Çünki, o, elə bir insan, elə bir müəllim idi ki, ünsiyyətdə olduğu hər bir kəsin yaxşı olmasını, savadlı olmasını, tərbiyəli olmasını istəyər və onlara bunu sevə-sevə elə aşılayardı ki, heç kim ondan narazı qalmaz, hətta yaxşı oxuya bilməyən şagirdlər də onu çox sevərdilər.

İsa müəllim nəinki öz ixtisası üzrə savadlı idi, o, ümumtəhsil sahəsi üzrə yüksək biliyə malik idi. Hansı bir sahə üzrə anlaşılmaz bir fikir ortalığa çıxardısa həmən İsa müəllimə müraciət edərdik, o isə öz təmkinli və aram söhbəti ilə, təvəzökarlıqla bizə həmin mövzunu çox ətraflı izah edərdi. Nə qədər ondan öyrənirdiksə yenə də hər dəfə onunla görüşəndə yeni bir fakt, yeni bir fikir eşidirdik.

Mən onunla birlikdə çoxlu elmi yığıncaqlarda, tədbirlərdə iştirak etmiş, ekskursiyalarda olmuşdum. Onun rəy və təklifləri ilə məktəbdə çoxlu tədbirlər keçirmişdim. Belə tədbirlərin müəyyən hissəsini videokassetlərə çəkdirib saxlamışam. Mən 50-dən çox belə kaseti hal-hazırda arxiv materialı kimi saxlayıram. Ölkəmizin müxtəlif yerlərinə şagirdləri ekskursiyaya İsa müəllimlə birlikdə aparmışıq. İsa müəllimin həmin səfərlərdə bütün ekskursiya boyu göstərdiyi müəllimlik şücaətini qələm qarası ilə kağızda ifadə etmək qeyri-mümkündür. Bu səfərlərdən birini nümunə göstərək: 9 oktyabr 1991-ci ildə təkrarən Milli Ordumuz yarandı. 10 ilə qədər həmin gün qeyri iş günü olmaqla bayram edildi və hər il biz hərbi hissələrə bayram təbrikinə gedirdik. Bir il məktəb kollektivi bayram sovqatı olaraq ərzaq dolu avtobusla "N" saylı hərbi hissəyə getmişdi. Şagirdlər və müəllimlər tərəfindən İsa müəllimin ağsaqqallığı ilə iki saatlıq bədii proqram hazırlanmışdı. Bütün hərbiçilər açıq zala yığıldılar və o qədər gözəl tədbir keçdi ki, yüzlərlə əsgər və zabit uzun müddət kollektivimizi ayaqüstü alqışladılar. Sonralar səfərlərə hərbi hissədən bizə təşəkkür məktubları gəlirdi. İsa müəllim tədbirin təsirindən aşağıdakı şeiri qələmə almışdı (ixtisarla):

*Ey cəsur ordumuz, igid ordumuz,*
*Sənə arxalanır ana yurdumuz!*
*Sən xalqın qeyrəti, vuran qolusan,*
*Sən oddan yaranan odlar oğlusan,*
*Babəksən, Həzisən, Qoç Koroğlusan,*
*Ey cəsur ordumuz, igid ordumuz,*
*Sənə arxalanır ana yurdumuz!*

*Sən elə arxasan, el sənə dayaq,*
*Torpaqdan güc alaq, göydən şığıyaq.*
*Haydı, Qarabağı darda qoymayaq,*
*Ey cəsur ordumuz, igid ordumuz,*
*Sənə arxalanır ana yurdumuz!*

*Bu nə gözlə-gözlə, bölgə-bölgədir,*
*Qaçqınlıq, köçgünlük ağır ləkədir.*
*Zəngəzur, Göyçədə bizim ölkədir,*
*Ey cəsur ordumuz, igid ordumuz,*
*Sənə arxalanır ana yurdumuz!*

*Misilsiz sərvəti Azərbaycanın,*
*Çəkir diqqətini bütün dünyanın.*
*Kükrə Xəzər kimi, qoy coşsun qanın,*
*Ey cəsur ordumuz, igid ordumuz,*
*Sənə arxalanır ana yurdumuz!*

Bu gün artıq dünyanın ən nüfuzlu ölkələrinin ordusu ilə rəqabət aparacaq bir ordumuz var. Bunu Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə 2016-cı ilin aprel döyüşlərində, 12-15 iyul 2020 tarixlərində Tovuz sərhəddində düşmənin təcavüz cəhdinə verilən misli görünməyən cavab zərbələrində, 27 sentyabr - 8noyabr 44 gün ərzində 30 ildən artıq erməni zəbti altında olan torpaqların azad olunmasında göstərdiyi qeyri-adi, dünyada analoqu olmayan döyüşlərdə ordumuz bütün dünyaya göstərdi.

Təhsil ekspertləri təhsili irəli aparmaq üçün qanun-qaydalar, elmi məqalələr, təhsil haqqında müxtəlif prinsiplər işləyib həyata keçirməyə çalışırlar. Məncə əsl məsələ həqiqi müəllimlərin yetişməsidir. İsa müəllim kimi bir müəllimin fəaliyyəti qalaq-qalaq təhsil qaydalarından üstündür. Bəzən düşünürəm ki, nə yaxşı ki, İsa müəllim və onun kimi müəllimlər var imiş. Yoxsa bir kapitansız gəmi kimi bu "ümman dərya"da nə edərdik?

Əslində İsa müəllimin təkcə müəllimlik fəaliyyəti haqqında ayrıca kitab çap etmək olar, nəinki belə bir qısa yazı.

Allah ona rəhmət etsin, ruhu şad olsun!



**Abbas Abbasov,**
**Əyyublu bələdiyyəssinin sədri.**



# İsa Cavadoğlu-xalqının şairi, əsl müəllim və el ağsaqqalı

İsa Cavadoğlu hər zaman el-obasına şərəflə xidmət edən, xalqının birliyi üçün qələmi ilə, sözü ilə çalışan xalqının şairi olmuşdur. O, 1993-cü ildə Ulu Öndər Heydər Əliyevə həsr etdiyi 48 bəndlik " Heydər baba " şeiri ilə Azərbaycanın çətin dövründə xalqının istəyini bildirmişdir.

***Heydər baba, demə ahıl çağlısan:***
***Sən xalqımın uzaq görən ağlısan.***
***Həm ixtiyar, həm də cavan oğlusan***
***Tarix səni bu gün üçün yetirib,***
***Sən gələndən düşmən özünü itirb.***

***Heydər baba, göydə allah, yerdə sən***
***Yol göstərib igidə sən, mərdə sən,***
***Əlac eylə bu ağrıya, dərdə sən***
***Məğlub olmaq rüsvaylıq ağırdı-***
***Deməsinlər millətimiz fağırdı.***

***Heydər baba, azadlığın nəfəsi,***
***İsindirir, sevindirir hər kəsi.***
***Qanımızdan şölələnir piltəsi ,***
***Qoyma onu qara əllər söndürə,***
***Yolumuzu bir də geri döndərə!***

***Heydər baba, dünya axır-əzəli***
***Başdan-başa ziddiyyətli, məzəli.***
***Qoyma sönsün azadlığın məşəli***
***İşığına dünya biznən barışar,***
***Xeyrimizə, şərimizə qarışar.***

İsa Cavadoğlu vətəni və millətinə olan sevgisini bütün şeirlərində oxucularının diqqətinə çatdırmışdır. Onun bu yaradıcılığı rayon rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir.2020-ci ildə Tovuz Rayon İcra Hakimiyyəti tərəfindən Tovuz şəhərindəİsa Cavadoğlunun 90 illik yubileyi keçirilmişdir.

İsa Cavadoğlu hər zaman ictimai işlərdə və tədbirlərdə ziyalı və el ağsaqqalı kimi öndə olmuşdur. Həmçinin uzun müddət pedaqoji fəaliyyətlə məşğul olmuş İsa müəllim işlədiyi kollektivin və şagirdlərinin rəğbətini qazanmış, yüzlərlə ziyalı yetişdirmiş,həmişə ziyalılığı və gözəl insanlığı ilə başqalarına örnək olmuşdur.

İsa Cavadoğlu unudulmaz gözəl insan və el ağsaqqalı kimi qəlblərdə yaşayacaqdır.

Allah rəhmət etsin, ruhu şad olsun.



*Məhərrəm Qasımov,*
**RİHB-nin Əyyubllu İƏD üzrə nümayəndəsi**

# Unudulmaz müəllim

İsa müəllim haqqında yazmaq, danışmaq məsuliyyətlidir. Hər şeydən əvvəl o, hərtərəfli bir insan idi. Orta məktəbdə oxuyarkən mənim dil-ədəbiyyat müəllimim olmuşdu. Sonra tale elə gətirdi ki, biz uzun müddət bir məktəbdə çalışdıq. Mən biologiya ixtisasını seçsəm də ədəbiyyatı çox sevmişəm. Bunun bir səbəbi də İsa müəllim olmuşdur. O vaxtlar onun şeirləri kitab halında dərc olunmamışdı. Yeni yazdığı şeirləri ilk dəfə bizə oxuyardı. Bəzən o şeirlər "Həqiqət" qəzetində dərc olunurdu. Yadımdadır,"Sənət eşqi" şeiri qəzetdə dərc olunmuşdu. Mən həmin şeiri qəzetdən kəsib götürmüşəm və , indiyə qədər kitablarımın arasında saxlayıram. Ali məktəbdə oxuyarkən tələbə yoldaşlarıma göstərirdim. Fəxr edirdim ki, belə bir müəllimin şagirdi olmuşam.

*Sinfə girəcəksən, məsum balalar,*
*Əlləri üzündə dayanacaqlar.*
*Səni Allah sayıb o zaman onlar,*
*Nə desən öyrənib inanacaqlar.*

İşlədiyim müddətdə həmişə bu sözlər qulağımda səslənib. İsa müəllim böyük şair olmaqla bərabər el ağsaqqalı, sadə və səmimi insan idi. Mən Əməkdar müəllim fəxri adına layiq görüləndə hamıdan çox sevinən o idi. Mənim bu uğurumda onun da əməyi olmuşdur. Mən ondan müəllim peşəsinə məhəbbəti, ciddiliyi, məsuliyyəti öyrənmişdim.

Əziz müəllimizin xatirəsi əbədi olaraq yaddaşlarda yaşayacaqdır.



**Rəna Yusifova,**
**Əməkdar müəllim.**

# Ədəbiyyatdan əbədiyyətə qovuşan şair

Şair,pedoqoq, İsa Cavadoğlu haqqında söz demək, yazı yazmaq sağlığında mənim üçün son dərəcə xoş təsir, gözəl əhval-ruhiyyə yaradan bir amilə çevrilirdi, ancaq şairin ölümündən sonra qələmi əlimdə yox, çiynimdə ən ağır yük kimi hiss edirəm. Ədiblərdən biri demişdir: Bir insanda 3 şey axtarın, zəka, enerji və dürüstlük. Əgər, sonuncu yoxdursa ilk ikisiylə də işiniz olmasın.İsa müəllimin şeirlərinin təsir gücü həm də onda idi ki, hər bir sözü, fikri qəlbinin saf duyğularından ilhamlanırdı.

Bu sözü sən elə ilhamla dedin,
Çoxları qıvrıldı bu sözün altda.
Bu adi söz deyil, qardaş,həyatda,
Bu adi hikmət də deyidir hətta,
Deyəsən hamının xoşuna gəlsin.
"Nə əməl tutmuşam,-dedim,-həyatda,
Oğlumun, qızımın başına gəlsin"…

Mən İsa Cavadoğlunun əksər şeirlərinin vurğunuyam. Bir dəfə Bakı şəhərində olanda bir yaxınım söhbət əsnasında mənim diqqətimdən qaçan "İki dən" şeiri haqqında öz təəssüratlarını bildirəndə təəcüblənməyə bilmədim.

Bir sünbüldən iki dən,
Biri düşdü pis yerə
Can atdı ki, göyərə,
Nə su gördü, nə qayğı,
Əli uzaqlı qaldı,
Bar vermədi, saraldı.

O birini əkdilər,
Qayğısını çəkdilər.
Suvardılar vaxtında,
Kübrə-filan verdilər,
Bəhrəsini dərdilər!
Birincini görənlər:
"Pis toxumdur", - dedilər,
İkincini görənlər:
"Cins toxumdur", - dedilər.

Bu sadə dildə yaılmış şeir zənnimcə hər bir bağbanı düşündürməlidir. Hansısa çətin vəziyyətə düşən insanın məssələdən çıxış yolu üçün bir həyat düsturu olmalıdır.

Görkəmli türk ədibi Aydın Meric deyirdi: "Günəş ölkələri aydınladır, sözlərsə millətləri aydınladır". Bu sözləri elə bil ədib İsa müəllimin şeirləri üçün deyib. Şeirlərindəki fəlsəfi fikirlər insanı həm insan olmağa, həm də gözəl təfəkkürə dəvət edir. Şairin şeirləri zehinlərimizdən çox könüllərimizdə özünə yuva qurur.İsa müəllimin özünün də, şeirlərinin də dəyəri ondadır ki, o həmişə ülviyyətə can atır. Onun şeirləri xalqın dünənki, bugünkü və gələcək həyatının canlı lövhələrini, mənəvi əxlaqi dəyərlərini, dövrün əsas meyllərini və bir çox incə nüanslarını olduqca gözəl tərənnüm etdilər:

Sənin nəfəsinmiş odum, ocağım,
Sənsiz buz bağladı, otaq üşüdü.
Ah çəkdim, bəlkədə ahım isidə,
Ahım qırov oldu, çıraq üşüdü.

Biz lələ koması mənim timsalım,
Səndən ayrılalı fənadır halım,
Nə qədər yandırdım, yenə, a zalım,
Oda yana-yana ocaq üşüdü!

Lələk qələmini batırıb qəmə,
İsa bu həsrəti aldı qələmə.
Hicran sözü elə soyuqmuş demə,
Qələmin ucunda varaq üşüdü.

Bu şeiri oxuyub necə şərh yaza bilərsən, yaz görüm yaza bilərsənmi? Nə cür alovlandığını yaza bilmək, deyə bilmək, demək zəif alovla yanmaqdır.

İsa Cavadoğlunun şeirlərində kökdən qopmamağın, həm də üzü gələcəyə doğru olmağın şahidi oluruq. Kitabları bir öyrənilməli əsərdirsə, şəxsi həyatı da insanlıq nümunəsidir.Onun əxlaqi nüfuzuna səcdə etməmək mümkün deyil. İsa müəllimin şeirlərini oxuyanda bir daha anlayırıq ki, tərbiyə böyük işdir, insanın, millətin taleyini o həll edir. O özünü yaxşı hərəkətlərdən nümunə götürməklə öyrətməklə bərabər, özü də yaxşı nümunə yaratmağı öyrədən şəxslərdəndir.

İsa müəllimin şeirləri elə bil dağ şəlaləsidir, özü özünə yol tapır. Məhz buna görə şeirsevərlər onun şeirlərini əldən-ələ, dildən-dilə öyrənirlər.

Ey insanlar mən deyirəm ki, dəyərli insanlara dəyər verməк lazımdır, yoxsa insanın özü dəyərdən düşər. Əlbəttə hər şeyin ən yaxşı açıqlaması zamandır. Bu fani dünyada heç nə əbədi deyil, ancaq söz, yaxşı əməl əbədidir. Hər şeydə halallıq lazımdır. Söz sözdür ki, onun da mayasında halallıq, dürüstlük olmalıdır. Sözün, fikrin mayasında halallıq olmasa, o söz zirvəni fəth edə bilər, ancaq orada qala bilməz. Deyirlər:"qışın soyuğundan daha çox ağaclar acı çəkir, insanların soyuqluğundan, biganəliyindən daha çox şairlər".

İsa Cavadoğlu o şairlərdəndir ki,vətənin dar günündə, bütün ümidlərin tükəndiyi vaxtlar, Ulu Öndərin meydanda demək olar tək qılınc çaldığı vaxtda, hər insanın onun yanında səf tutmağına cürəti çatmadığı zamanlarda(1993-cü il 13-18 avqust) 48 bəndlik şeir yazdı:

...Heydər baba, vicdanında namus, din,
Dosta hörmət, düşmənlərə qəzəb, kin,
Atillanın, Teymur xanın, Babəkin...
Qeyrətidi damarında çağlayan,
Səni xalqa, xalqı sənə bağlayan.

İsa Cavadoğlunun həyat yolu çox zəngindir. O, hələ 1997-ci ildə yaşadığı kənddə kəndin qədim adı sayılan "Aşağı Alplı" ağsaqqallarının xeyriyyə məclisini yaratmışdır. Fərman Məmmədov , Yunis Mehdiyev, İmran Əhmədov, Sabir Əhmədov, İsrafil Mehralıyev, Seyyid Ağamir, Həsən Həsənov, Musa Yusifov , Əsgər Əliyev kimi sayılan, seçilən ağsaqqallar bu cəmiyyətin üzvləriydi. Zaman su kimi axıb gedir, indi də Aşağı Alplı Xeyriyyə Məclisinin üzvləri rəhmətə getmiş ağsaqqallarımızın yolunu şərəflə davam etdirməyə çalışırlar. Dünyasını dəyişən son günlərədək İsa müəllim cavan nəsillərin yol göstərəni idi.

Dahi Səməd Vürğunun bu sözlərini mən tərəddüdsüz İsa müəllimə də şamil edərəm:" Şairlərin öz əsərlərində yaşamaq kimi gözəl bir adəti vardır".



***Mübariz Hüseynğalı***

# İSA CAVADOĞLU MÜTƏFƏKKİR ŞAİRDİR

Mərhum şairimiz İsa Cavadoğlu kəndimizin, eləcədə rayonumuzun fəxri olmaqla, Azərbaycanda ədəbiyyat və poeziyasevənlər tərəfindən kifayət qədər tanınır və sevilir. İsa müəllim 60 il pedaqoji fəaliyyətlə məşğul olmaqla paralel, şairlik fəaliyyətilə də məşğul olmuşdur.

Mən, uzun müddət polis orqanlarında işləməyimlə əlaqədar olaraq, ölkəmizin bir sıra şəhər və rayonunda olmuşam. Həmin şəhər və rayonların bir sıra tədbirləində, eləcə də toy şənliyində olan zaman İsa müəllimin yaradıcılığından şeirlər səsləndirilməsinin şahidi olmuşam. Toy şənliklərində masabəylər və söz deyərək çıxış edənlər İsa Cavadoğlunun şeirlərini səsləndirirdilər. Şəxsən özüm onun şeirlərini səsləndirən zaman istər masabəyləri, istərsə də, poeziyasevərlər həmin şeirləri məndən köçürürdülər.

Hələ çox gənc ikən 1970-1971-ci illərdə Bakı şəhərində bir təşkilatda fəhlə kimi çalışırdım. Həmin təşkilatda kifayət qədər ziyalı, poeziyasevər insanlar var idi. Əksəriyyəti Gəncəbasardan idilər. Bir gün işdə olan zaman, onlar məni çağırıb dedilər: "Bu qəzeti oxu, sənin kəndlinin şeiridir". Onlar mənim haralı olduğumu bilirdilər. Şeir "Azəraycan gəncləri" qəzetində çap olunmuşdu. Oxuyanda gördüm ki, "Azərbaycanam" şeiridir. Elə həmin vaxtdan şeiri əzbərlədim və çox bəyəndim. Nəinki mən bəyəndim, şeirlə tanış olanlar da çox bəyəndilər. Həmin şeiri hansı bir tədbirdə səsləndirəndə alqışla qarşılanıram.

Yeri gəlmişkən qeyd edim ki, təxminən 4 il əvvəl Bakı şəhərində bir dostumun evində ailəvi qonaq olan zaman (o əslən Neftçalalıdır və poeziyasevərdir) mənə dedi: "Ata haqqında bir şeir səsləndirəcəm, qulaq as!". O şeiri səsləndirən zaman birinci bəndi eşidən kimi bildim ki, İsa müəllimin şeiridir. Mən onu dayandırmadım. Dostum birinci bəndini deyib üzünü mənə tutub - "Bəyəndinmi?"- dedi. Dedim ki, çox bəyəndim. Mən ondan soruşdum: "Sən özünmü yazmısan? ". O cavabında dedi: "Yox, İsa Cavadoğlu adlı şairin şeiridir". Daha sonra həmin şeiri şəxsən özüm əzbər səsləndirdim. O, isə çox təəccübləndi. Ona məlum oldu ki, İsa Cavadoğlu mənim həmkəndlimdi. Həmin dostum Faxrəddin bir neçə gündən sonra bizim kəndə gəlib İsa müəllimlə tanış oldu və əlindən öpərək ona uğurlar arzuladı. İsa müəllim də özünün 600 səhifədən çox "Ya Qismət" kitabını ona bağışladı. Bununla onu demək istəyirəm ki, İsa müəllim ölkəmizdə kifayət qədər tanınır və çox sevilir. Hətta İsa müəllimin şeirlərindən birini qocaman neftçimiz Xoşbəxt Yusifzadə tədbirlərin birində səsləndirmişdir. Eləcədə respublikamızda tanınmış xanəndələr, müğənnilər və aşıqlar onun şeirlərindən bəhrələnmişlər.

İsa Cavadoğlu elini,obasını sevən, onu tərənnüm edən vətənpərvər bir şairdir. O poeziyanın bütün sahələrində özünü sınamış və olduqca müsbət nəticə əldə etmişdir. Onun yaradıcılığı gənclərin milli vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayır. O, haqsızlığa, ədalətsizliyə qarşı mübarizə aparmaqla, ətrafında olan insanları da bu işə cəlb etməyə çalışırdı. Onun şeirlərindən bir bəndini nəzərinizə çatdıram:

*Haqqı, ədaləti uca sanmışam,*
*Bu yolda od tutub necə yanmışam...*
*Bəzən tənə sözlə yaralanmışam,*
*Of deyib göz yaşı silməmişəm mən.*

İsa müəllim mütəfəkkir bir şairdir. O olduqca təvazökar olmaqla, çox vicdanlı, savadlı, dünyagörüşlü, mədəni, tərbiyəli, gözütox bir insan idi. Bizlərin arasında hansısa bir sahədən mübahisə yaranan zaman, onunla əlaqə saxlayıb, fikirlərini öyrənirdik. Bilirdik ki, o haqlı cavab verəcək. Mən və bizimlə birlikdə olan poeziya həvəskarları, demək olar ki, hər gün onunla görüşüb söhbət edərdik, birlikdə çay içərdik. Görüşümüzdən sonra ruhumuz dincəlirdi, rahatlıq tapırdı.

İsa Cavadoğlu bir neçə poemanın da müəllifidir. Həmin poemaların hamısı bir-birindən maraqlı və mənalıdır. 1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin haqqında yazdığı 48 bənddən ibarət poeması özünün məzmununa görə diqqəti cəlb edir. İsa Cavadoğlu ulu öndər Heydər Əliyevi Azərbaycanı düşdüyü bəladan xilas etməyə çağırır. Hansı ki, həmin vaxtlar Heydər Əliyev haqqında nə isə yazmağa heç kəsin cürəti çatmazdı. Lakin o buna baxmayaraq öz poemasını qələmə almışdı. Həmin poemadan iki bəndi nəzərinizə çatdırıram.

*Heydər baba! Vətən ağır gündədi,*
*Qanı düşmən astanada, tindədi,*
*Nicat yolu, ümid yolu səndədi,*
*Yığ başına igidlərin dəsini,*
*Kəs yağının nəfəsini, səsini...*

*Heydər baba, vicdanında namus, din,*
*Dosta hörmət, düşmənlərə qəzəb, kin,*
*Atillanın, Teymur xanın, Babəkin...*
*Qeyrətidir damarında çağlayan,*
*Səni xalqa, xalqı sənə bağlayan!*

İsa Cavadoğlunun yaradıcılığı o qədər dolğun və çoxşaxəlidir ki, hansından söz açmağa adam çətinlik çəkir. Düşünürəm ki, qeyd etdiklərim onun yaradıcılığından az da olsa məlumat almaq üçün kifayət edər. O dünyasını dəyişəsə də, qoyub getdiyi irs yaşayır. Allah rəhmət eləsin, məkanı cənnət olsun, qəbri nurla dolsun!



***NazimSadıqov,***
***keçmiş polis zabiti***

# LƏL-CƏVAHİRLİ ÖMÜR

Vaxt çatdı, ay İsa, bilmədik necə,
El-oba yığılıb vida deyincə,
Qaldıq evimizdə qonaq bir gecə,
Bir canı yaşayıb verdik həyatda.

Zamana sığmayan, əsrlərin, qərinələrin götürə bilmədiyi dahilərin doğumları, yaradıcılıqları, fəaliyyətləri bəşəriyyət üçün nə qədər sevindirici haldırsa onları itirmək də bütün insaniyyətə bir o qədər ağır zərbə və faciyədir. Müdriklərin dünyamızın formalaşmasında, insan oğlunun sağlam, təhlükəsiz yaşamasında, elminin artmasında və bəşəriyyətin xoş sabahı üçün göstərdikləri fəaliyyətlər danılmaz həqiqətdir. Hər bir toplumun aydını o elin, obanın xoş, ümidverici gələcəyidir. Məhz bu yaxınlarda Tovuz eli,Əyyublu camaatı təkcə öz elnin, obasının yox bütün Azərbaycan və Türk dünyasının yetirdiyi böyük bir aydını itirdi.

Dünyaya qayıdam min ildən sonra,
Bülbüllər səsimdən tanıya məni.
Çəmənlər, çiçəklər məhəbbətimdən,
Bulaqlar izimdən tanıya məni.

Yuxardakı həzin, musiqili və təsirli şeiri qələmə alan dahi pedaqoq-şair İsa Cavadoğlu ömrünün 95-ci çağında Haqqa yürüş etdi. İsa Cavadoğlunun dünyasını dəyişməsi onu sevənləri, poeziya aşiqlərini, ədəbiyyatçıları və bütün sıravi insanlarımızı kədərləndirmişdir. Taleyimdən razı bir insan kimi deyə bilərəm ki, 14 ildən çox bir müddətdə dahi, müdrik İsa Cavadoğlu ilə qələm dostluğum, yoldaşlığım oldu. Bu mənim üçün misilsiz xəzinə idi. Həmin yoldaşlıq və dostluğa söykənərək deyə bilərəm ki, İsa müəllimin yaradıcılığı nə qədər ləl-cəvahirli idisə, onun şəxsiyyəsində də zəngin idi. Xasiyyətcə sakit, mülayim, haqqı üstün tutan, halal kişi idi. Bir sözlə həm elm adamı, həm də el ağsaqqalı idi. İsa müəllimin haqqında bu qısa məqalədə danışmağa çətinlik çəkirəm və onun haqqında geniş auditoriyalarda, konfranslarda, elmi yazılarda çıxış etmək lazım gəlir. Onun yaradıcılığı və şəxsiyyəti haqqında gələcək tədqiqatçılar çox yazacaqlar və tədqiq edəcəklər.

İsa İsayevlə eyni dövrdə yaşayan rayonumuzun və ölkəmizin qabaqcıl insanları şairin şəxsiyyəti və yaradıcılığı haqqında misilsiz sözlər səsləndirmiş və qələmə almışlar. Ozan-aşıq sənətinin müdrik kişilərindən biri Mikayıl Azaflı haqlı olaraq İsa Cavadoğlunu Tovuz ədəbi mühitinin söz peyğəmbəri adlandırmışdır. Həqiqət onun şeirlərinin elmliyi, dəqiqliyi, axıcılğı, musiqiliyi bu fikri səsləndirməyə əsas verir. Azərbaycan Aşıqlar Birliyinin sədri, AMEA-nın professoru və İsa müəlimin sevimli tələbələrindən biri Məhərrəm Qasımlı isə xalq yaradıcılığında qabaqcıl sıralarda dayanan Ağ Aşıq, Xəstə Qasım, M.P.Vaqif, Vidadi, Aşıq Alı, Aşıq Ələsgər və s. kimi ədəbi korifeylərlə İsa müəllimin eyni cərgədə dayandığını vurğulayır. Tovuz rayon İcra Hakimiyyətinin rəhbəri Məmməd Məmmədov isə İsa Cavadoğlunun yubiley tədbirində İsa müəllimlə eyni dövrdə yaşamasından və onun yaşadığı dövrdə rayon rəhbəri olmasından qürur hissi keçirdiyini məmnuniyyətlə bildirmişdir.

Dahi şəxsiyyətlər öz əsərləri ilə ölməzlik qazanırlar. Bu baxımdan əziz oxucunu yormadan məqaləmi yekunlaşdıraraq İsa müəllimin "Kim bilir" fəlsəfi şeiri ilə fikrimi tamamlayıram.

Dünya gözəl, həyat şirin, can şirin,
Harda bitər ömrün sonu, kim bilir?
Yaranırıq, yaşayırıq, ölürük,
Kim yaradıb bu oyunu, kim bilir?

Görürsənmi o can alan gözəli:
O, gələcək gözəllərin əzəli.
Yüz il keçər bu dünyanın buz əli,
Ona biçər hansı donu kim bilir?

Hər xilqətin öz dövranı, dünyası,
Min hökmdar ləğv edəmməz bir yası.
Muzeylərdə fironların mumyası,
Ahmı tutub o fironu, kim bilir?

Çox mənalar sirr qalır, duymuruq,
Ölüm nədi,heç yaxına qoymuruq.
Milyon-milyon sərvət yığır, doymuruq,
Kim yeyəcək o milyonu kim bilir

Bu daş-torpaq babaların yaşıdı,
Sualımız bu torpağa, daşadı:
Deyirlər ki, nəsil ruhu yaşadır,
Kimlər kimin ruhunu kim bilir?

Ya peyğəmbər, ya filosof, ya da şah,
Ya milyoner, ya dilənçi, ya fəllah.
Hər nəfəsin son sədası eyni ah,
Fərqi varsa deyin onu kim bilir?

Bəs ay İsa, nə səfərdir bu səfər,
Dünya durar, karvan gedər, hey gedər…
Gələcəkdir gələcəyin nə qədər,
İsgəndərdi, Napoleonu kim bilir?

Allah İsa Cavadoğluna rəhmət eləsin, məkanı cənnət olsun!



***Mahmud Əyyublu,***
***AAB-nin üzvü.***

# SÖZÜNÜ DÜNYAYA DEDİ DƏ, GETDİ

…İsa Cavadoğlunu öncə şeirlərindən tanıdım. Şeirlərindən tanıdığım işıqlı Adamla, işıq Adamla 1975-ci ildə - yarpaqlar qızaranda «Həqiqət» qəzeti redaksiyasında tanış oldum. Baxışlarında gözəllik axtarışı vardı. O, şeirlərinə çox bənzəyirdi. Şeirlərində olduğu kimi, söhbətində də haqsızlığa qarşı bir üsyan vardı, etiraz vardı. Sözü də özü boyda olan şairlə 1981-1982-ci ilin iyul aylarıda M. V. Lomonosov adına Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinin tələbəsi kimi «Həqiqət» qəzeti redaksiyasında təcrübə keçərkən daha yaxından tanışlıq imkanı qazandım. O böyük şairdən ustad dərsi öyrəndim, şair yükünün nə qədər ağır olduğunu anladım və özümü gələcəkdə daha çox yazıçı-jurnalist kimi görməyə başladım.

Yaxşı yadımdadır. 1992-ci ildə ən xeyirxah, ən dəyərli bir insanla - Əyyublu kəndində dünyaya göz açan, Bakıda «Nur» fabrikinin direktoru, unudulmaz Oqtay Məmmədovla (qəbri nurla dolsun. - red.) söhbətlərimizin birində İsa Cavadoğlundan söz saldım və onun ilk şeirlər kitabının çapı üçün o kişidən xahiş elədim. «İsa müəllim təkcə Əyyublu kəndinin, Tovuz elinin yox, Azərbaycanın ən dəyərli söz adamlarından, şairlərindən biridir», - deyə Oqtay müəllim fəxrlə bildirdi.

İsa müəllimin şeirlərinin az bir hissəsini əldə edərək «Azərbaycan» nəşriyyatında çap elətdirdim. «Ya qismət» adlandırdığım şeirlər toplusuna «ön söz» də yazıb böyük sevgi və səmimiyyətlə oxuculara təqdim elədim.

…1995-ci ilin avqust ayında Tural balama kiçik toy məclisi qurmaq istədim, amma saxta və təhlükəli «basma» araqların «ayaq açıb yeridiyi» Tovuz elində əsl zavod istehsalı olan «Vodka» tapmaqda müəyyən çətinliklər vardı.

Əyyublu kəndində yaşayan bir qohuma müraciət elədim. O da öz növbəsində İsa müəllimlə əlaqə saxladı. Üçlükdə görüşdük, çay içdik, çörək kəsdik. İsa müəllim «Vodka» məsələsini həll elədi. Və mən onun Tovuz elində necə böyük hörmət sahibi və nüfuz yiyəsi olduğunu bir daha anladım. Bu görüş əbədi olaraq ömür kitabıma yazıldı. Səmimi söhbət elədik, şeirdən-sənətdən söz açdıq. İsa müəllim fəxrlə bildirdi: Vaqif, «Boz qurd» və «Aldada bilmərəm özümü daha» kitablarını diqqətlə oxudum. İncimə, səni şair kimi yox, daha çox yazıçı kimi görürəm. İnanıram ki, yazıçı kimi daha çox uğur qazanacaqsan». - Razılıqla ona baxdım. O böyük insandan müəllim və şair ömrünün ətri gəlirdi. O gündən məndə də şərəfli, ləyaqətli yaşamaq, ancaq haqqı yazmaq arzusu oyandı və buna indiyə kimi əməl etməyə çalışıram. İsa müəllimin dediyi bu sözləri də yaxşı xatırlayıram. «Vaqif, unutma ki, Tanrı onun sevmədiyi bəndələrdən yazan qələm adamlarını bağışlamır».- Təəssüf ki, ustadın 1995-ci ildə dediyi bu sözləri tezliklə unutdum və Tanrının sevmədiyi bəndələrindən də kitablar yazdım və yazdığım bəzi kitabların xəcalətini bu gün də çəkirəm. Nə isə.

…Unudulmaz İsa Cavadoğlu sözə bükülüb dəfn edildi, çünki o, söz adamı idi və söz adamı kimi sözə ruh verirdi, nəfəs verirdi, sözü yaşadırdı. Ölümündən sonra da söz onu yaşadacaq, onu həmişə diri saxlayacaq.

Bəli, sözdə yaşayan, şeirlərində əbədi var olan İsa Cavadoğlu əsl insan ömrü, müəllim ömrü, şair ömrü yaşadı və qələmini bir kənara qoyub rahatca bu dünyadan köçüb getdi. Dünyaya sözünü deyib gedən işıq Adamdan bu dünyada yüz illərlə oxunacaq söz qaldı, dəyəri ölçüyə gəlməz kitablar qaldı.

Əlli ildən, yüz ildən sonra da böyük ustadın kitablarını açıb oxuyan oxucu misraların, sözlərin tərpəndiyini, nəfəs aldığını, diri olduğunu, Ay kimi, ulduzlar kimi işıq saçdığını görəcək və bir daha əmin olacaq ki, əsl şairlər ölmürlər, onların cismani ömrü zamana tabe olsa da, ruhani ömrü əbədidir.

Hər şeirində əsl şair obrazı boy göstərən İsa Cavadoğlu dünən də sözün zirvəsində olub, bu gün də sözün zirvəsindədir, sabah da sözün zirvəsində dayanacaq. O böyük ustad ona görə sözün zirvəsindədir ki, müəllim kimi, şair kimi, ziyalı kimi, insanlığı yaşadan bir insan kimi həmişə özü olub.

Rahat yat, ustad!



*Vaqif İsaqoğlu*

# Ölməz şair

İnsan var öz ömrünü yaşayır. İnsan da var yüzlərlə, minlərlə insanların ömür yoluna işıq saçır. Belə insanlardan biri də İsa müəllim olmuşdur.

İsa müəllim hərtərəfli bir insan idi. Şair,yazıçı, publisist, dramaturq, pedaqoq, rəhbər işçi, müdrik el ağsaqqalı kimi hamının ona sonsuz rəğbəti vardı. İsa müəllim böyük şair idi. Bütün şeir sevərlər onun şeirlərini həvəslə əzbərləyir və bir-birinə bu şeirləri məhəbbətlə deyirlər. Bal kimi insanların ürəyinə süzülən bu şeirlər müxtəlif məzmunu bir birindən fərqlənir. Vətənin təbii gözəlliklərini: uca dağlarını, bullur bulaqlarının, zümrüd meşələrini təzənnüm edən şair:

***Ana vətən qoy dolanım başına,***
***Qurban olum torpağına,daşına,***
-deyir.

İsa müəllim vətəndaş şairi idi. O, həmişə xalqını birliyə, elini,dilini uca tutmağa əslini,kökünü unutmamağa çağırırdı. İsa Cavdoğlu böyük pedaqoq idi. Dərs dediyi şagirdlərdə ədəbiyyata sonsuz maraq oyadırdı. O.mənim müəllimim olmuşdur. Mənim ədəbiyyat fənnini sevməyimdə onun rolu olmuşdur. Sonralar İsa müəllimlə E.Bayramov adına tam orta məktəbdə dil-ədəbiyyat müəllimi kimi bir yerdə çalışmışıq.

Mən hər dəfə İsa müəllimi görəndə ürəyimdən bir hiss keçirdi. Kaş indiki ədəbiyyat müəllimləri də İsa müəllimin şagirdləri olaydı O, dərsdə bizi heç kəsə bənzəməyən məlahətli səsi ilə sehrli aləmlərə aparar, Nizami hikməti, Füzuli sehrinə düşər, Dədə Qorqud öyüdü eşidərik. Biz sadəcə müəllimə qulaq asmırdıq sanki o dərs kino lenti kimi gözlərimiz qarşısında canlanırdı. İsa müəllim buna sənətinə olan sonsuz məhəbbəti gərgin əməyi ilə nail olmuşdur.

Ədəbiyyat,söz aləmində özünəməxsus yer tutan şair İsa Cavadoğlu həmişə xatirələrdə yaşayacaqdır.



***Tavad Qasımova, təqaüdçü müəllim.***

# Gözəl müəllim və unudulmaz şair

İsə müəllim tamam fərqli bir insan idi.İstər geyim keçimi, istər davranışları və hərəkətləri, istərsə də insani keyfiyyətləri ilə ətrafdakılardan fərqlənirdi.

Mən orta məktəbdə oxuyan zaman İsə müəllimi çox gənc idi. O,vaxt mən müəllimi çox yaxşı tanımırdım. Lakin 1978-ci ildə İsə müəllim Aşağı-Ayıblı kənd 2№-li məktəbə direktor təyin edildi. Mən də həmin məktəbə müavin təyin olundum. Mən ondan sonra İsə müəllimi yaxından tanıdım. İsə müəllim şeirə çox həvəskar idi. Bir gün məni otağına çağırıb, dedi ki,otur. Mən çox gənc idim, ona görə bir az sıxılırdım. İsə müəllim durub gəldi mənim yanımda oturdu. Mənə dedi ki, sənin vəzifəndə mən uzun müddət işləmişəm nə çətinliyin olarsa çəkinmədən mənə deyərsən,köməklik edəcəm.

Mənə çox öyüd-nəsiyyət verirdi. Həmişə deyirdi ki, səbirli ol,öz işinə can yandır. O, çox şirin söhbətlər edərdi. Arada öz yazdığı şeirləri oxuyardı. İsə müəllim yaxşı yoldaş həm də yaxşı şayir idi. İsə müəllim direktor olmağına baxmayaraq çox şirin zarafatlar edərdi. Zəngin həyat tarixcəsi olan İsə müəllim haqqında olan ürək sözləri-mi təbii ki, bir yazıya sığışdırmaq olduqca çətindir. O, bizə zəngin bir irs qoyub getdi.



***Mayıl Dəmirov, təqaüdçü müəllim.***

# Söz hələ bitməyib

"Tənha qocanın nağılı" kitabını yazanda heç belə çətinlik çəkməmişdim. Heç özüm də bilmirəm hardan başlayım harda qurtarım.

Həmin kitabı bitirəndə elə fikirləşmişdim ki, müəllimimin, ustadımın haqqında artıq şeyi qələmə almışam. Ancaq onu itirəndən sonra anladım ki, indiyəcən yazdıqlarım dəryada bir damcı kimidir.

Ölümündən bir neçə gün öncə görüşdük. Zarafatla dedi: - Hə, sən də bizim pensiyaçılar dəstəmizə qoşuldun.

Bir xeyli dərdləşdik, yaradıcılığımla maraqlandı. Sonra ərklə bildirdi:

-Şərtimiz şərtdir. 100 yaşa cəmi beş il qaldı.

Onun nəyə işarə vurduğunu başa düşdüm. 85 illik yubileyində özündən xəbərsiz hazırladığım "Tənha qocanın nağılı" kitabını hədiyyə verəndə demişdim ki, Ustad, yüz yaşınızda bu kitabın ikinci hissəsini də sizə hədiyyə edəcəyəm. Ancaq qismət olmadı.

Mən İsa müəllimin dəfn mərasimində anladım ki, yazarlar heç vaxt ölmürlər. Qələm dostları, ziyalılar onu son mənzilə uğurlayanda söylədikləri vida sözləri bir daha sübut etdi ki, onun ruhu həmişə bizimlə olacaq, yuxularımızda yenə dərdləşəcək, yenə şeirləşəcəyik.

Kəndimizdə hələ izdihamlı dəfn mərasimi olmamışdı. Biz, adətən, öyrəşmişik ki, molla son fatesini verir, mərhum qəbrə qoyulur. Ancaq İsa müəllimin dəfn mərasimi tamam fərqli idi. Şairlərdən, yazarlardan tutmuş, onu tanıyan hər kəs son sözünü demək istəyirdi.

Ruhun şad olsun, qəbrin nurla dolsun, Ustad! İnşaallah, 100 yaşında "Tənha qocanın nağılı"nın ikinci hissəsi ilə məzarına işıq tutcağam!



*Ramiz Çıraqlı*

# Ədəbiyyatımızın sədaqətli xatirəsi

Qabiliyyəti, mərifəti, təmiz ürəyi vardı İsa Cavadoğlunun. Həm həmkarım, həm də müəllim yoldaşım idi İsa Cavadoğlu. Gənc yaşlarımda İsa müəllimdən çox şeylər öyrənməyə çalışdım. Bildiklərini gənc müəllimlərdən heç vaxt əsirgəməzdi. Həmişə gənclərə bir mayak kimi doğru yol göstərərdi. Fikrini, düşüncəsini, sevgisini, incə, saf duyğularını poeziyanın qüdrətli dili ilə ifadə edə bilən istedadlı şair və əvəzolunmaz pedaqoq idi İsa müəllim.

İsa Cavadoğlu həm şair, həm də publisist kimi tanınmışdır. Azərbaycan Yazıçılar birliyinin üzvü olmuş və ədəbi məclislərdə, elmi və mədəni tədbirlərdə fəal iştirak etmişdir. Onun yaradıcılığı sovet və müstəqillik dövrlərinin keçidini əks etdirən xronika kimi dərin sosial və humanist motivlərlə zəngindir.Şairin şeirləri insan və vətən, ailə və yaddaş tematikasına yönəlmişdir.

Dünyanı həvəslə dolanan səyyah,
Dost -tanış olmağa Tovuza gəlsin/
Baxıb bu yerlərin cah-calalına,
Xəyala dalmağa Tovuza gəlsin.

Onun poeziyasına ənənə və müasirlik arasında bir körpü qurulmuş sadə bədii dil vasitəsilə dərin fəlsəfi müşahidələr verilməyə çalışmışdır.

Publisist yazılarında ictimai və pedaqoji məsələlərə toxunaraq gənc nəsil üçün bələdçi rolu oynamışdır. Şair ədəbi məclislərin təşkilində və gənc yazarların yetişməsində fəal iştirak etmişdir. O, "Varislər" ədəbi məclisinə uzun müddət rəhbərlik etmiş, mədəni həyatın canlanmasına töhfə vermişdir.

İsa Cavadoğlu vətəninə əbəbi bağlanan şairdir. Kitablarındakı şeirlər onun səsinin,məhəbbətinin,canlı və böyük ürəyinin nişanələridir. İsa Cavadoğlu 31avqust 2025-ci ildə dünyasını dəyişdi. Onun ölümü ədəbi ictimaiyyətdə kədər və rəhmət hissi oyatdı Həmkarları və tələbləri onun yüksək insanlıq keyfiyyətinə malik şair və pedaqoq kimi xatırlayacaqlar. O,bir əsrdə doğuldu lakin özünü bütün əsrlərdə yaşadacaq nəğmələr və şeirlər yaratdı.

İsa müəllim el-obanın qəlbində əbədi məskən salan, ölməzlik hüququ qazanan el şairidir,el ağsaqqalıdır.

Qəlbimizdə həmişə yaşayacaq kimi qalacaqsan,İsa müəllim!

***Xalidə Məmmədova, E.Bayramov adına Əyyublu kənd tam orta məktəbin dil-ədəbiyyat müəllimi.***



BAŞ REDAKTOR: Çingiz Qəribli

Ünvanımız: Tovuz şəhəri, Şəhriyar küçəsi, 3. Telefon: (022) 312-35-23 tovuz.gazeti@mail.ru

Redaksiyaya göndərilən əlyazmalar geri qaytarılmır. Dərc olunan məktublardakı faktlar və elanların məzmununa görə redaksiya məsuliyyət daşımır.

Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələmiş və "Son dakka" mətbəəsində çap olunmuşdur.
Sifariş: 867
Tiraj: 1500